**Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1999-cu il 15 oktyabr tarixli, 1267 nömrəli və 1999-cu il 19 oktyabr tarixli, 1269 nömrəli qətnamələrinin yerinə yetirilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının terrorizmə qarşı mübarizəyə yönəldilmiş 1999-cu il 15 oktyabr tarixli, 1267 nömrəli və 1999-cu il 19 oktyabr tarixli, 1269 nömrəli qətnamələrinin qəbul edilməsi ilə əlaqədar qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının adı çəkilən qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsinə dair təkliflərini hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**
**№ 470**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2967.**